# "Almaniyadan Bakıya azarkeş gəlirsə, Bakıdan Naxçıvana gedə bilmir?"

*Peşəkar Futbol Liqasının (PFL) prezidenti Ramin Musayevin apasport.az saytına müsahibəsi*

**- Premyer Liqanın sonuna 3 tur qalıb. Çempionluğa iddialı "Qarabağ"la "Qəbələ"ni 4 xal ayırır. Sizcə, Ağdam klubunun bu üstünlüyü qoruyub, ardıcıl 4-cü dəfə qızıl medal qazanacağını söyləmək olarmı?**

- 3 oyun 9 xal deməkdi. Hər iki komandanın öz arasındakı oyundan sonra hansının daha şanslı olduğunu demək çətindi. Onların hər ikisi mübarizə aparan, Avropada sözlərini demiş komandadı. Bu səbəbdən heç nə deyə bilmərəm.

**- Son illərlə müqayisədə bu dəfə çempionluq mübarizəsinin daha gərgin keçdiyini demək olar. Bu fikirlə razısızmı?**

- Bu mövsüm hamı deyirdi ki, komanda sayı azdı, mübarizə olmayacaq. Amma heç də elə olmadı.

**- Avrokuboklara vəsiqə qazanan 3 komanda bəllidi. "Zirə", "Sumqayıt", "Kəpəz" və "Neftçi"nin iddia etdiyi sonuncu vəsiqəyə kimi iddialı sayırsız?**

- Yalan nə isə deyə bilmərəm. Proqnoz verməkdən xoşum gəlmir. Amma kim avrokuboklarda layiqli oyun göstərə biləcəksə, kim güclüdüsə, o da qalib gəlsin. Bizim bunda marağımız odu ki, həmin komanda Avropada ölkəmizi layiqli təmsil edib, azarkeşləri sevindirsin.

**- Artıq qitə miqyaslı turnirlərə vəsiqə qazanan "İnter"in gələcək taleyi hələ də sual altındadı. Komandanın avrokuboklardan kənar qalması mümkündümü?**

- İnşallah, oynayarlar. Niyə də oynamasınlar?

**- Ciddi problemləri olan "İnter" sponsor axtarışı barədə nə deyə bilərsiz?**

- Bununla bağlı heç nə deyə bilmərəm. Çünki hər şey iyundan sonra məlum olacaq.

**- I diviziona yuvarlanan AZAL-ın Premyer Liqada qalması mümkündümü? Ola bilərmi ki, peşəkar klubların azlığını nəzərə alıb, onları Premyer Liqada saxlayasız?**

- Biz istərdik ki, Premyer Liqada komandaların sayı çox olsun. Lakin hər şey ola bilər. Kim deyə bilərdi ki, Premyer Liqadan gedən komandaları itirəcəyik. İndidən nə isə demək çətindi.

**- I diviziondan neçə komandanın gəlməyi mümkündü? Hər şey reqlamentə uyğun olacaq, yoxsa?**

- Bunun üçün klubların lisenziya alması lazımdı. Hələ görək hansı komandalar bunu bacaracaq. Vacib budu. Yaxın zamanda bütün suallara aydınlıq gələcək.

**- Mayın 5-də keçiriləcək "Qarabağ"la "Qəbələ" arasında Azərbaycan kubokunun finalı Naxçıvanda baş tutacaq. Hər iki komandanın fanklubları bundan narazı qalaraq bəyanat yayıb. Bundan xəbəriniz varmı?**



- Xeyr. Bundan xəbərim yoxdu. Bəyanatın yayılması mənə çatmır, aydın deyil.

**- Onlar oyunun Naxçıvanda keçirilməsindən narazıdılar. Maliyyə baxımından bu səfərə yollanmağın çətin olduğunu vurğulayırlar...**

- Bəlkə də bunu bilmirlər. Mayın 4-dən etibarən Bakıdakı stadionların əksəriyyəti İslam Həmrəylik Oyunlarının Əməliyyat Komitəsinin ixtiyarına veriləcək. Bu səbəbdən final Naxçıvanda keçiriləcək. Naxçıvanda Superkubok, Qəbələdə kubokun finalı təşkil olunub. Sağ olsun "Qəbələ" rəhbərliyi, doğrudan da bizə böyük dəstək oldular, maraqlı keçdi, şərait yaradıldı. Demək olar ki, təşkilati işlərə bizdən çox klubun nümayəndələri kömək etdilər. Bu, danılmaz faktdı. Bu gün isə Qəbələdə oynaya bilmərik. Çünki sabah "Qarabağ" da etiraz edə bilər. Bundan da əlavə, Naxçıvan elə də uzaq deyil. Bu yaxınlarda millinin Almaniya ilə oyunu oldu. Həmin matça qonaq komandanın 1800 azarkeşi gəlmişdi. Almaniyadan Bakıya azarkeş gəlirsə, Bakıdan Naxçıvana gedə bilmir?

**- Onlar təyyarə xərclərinin çox olduğunu, avtobusla isə üç gün yol getməli olduğunu əsas gətirirlər. Razılaşaq ki, bizim fanatların imkanı da o dərəcədə deyil...**

- Onda onlara klub kömək etsin. Mən "Neftçi"də çalışanda azarkeşləri burdan İslandiyaya aparmışdım.

**- "Qarabağ" oyunun Qəbələdə keçirilməsinə razı olsa, matç burada təşkil oluna bilər?**

- Bu qərarı tək, öz başına verməmişik. Bu yaxınlarda AFFA-nın Konfransı keçirildi. Konfransdan sonra iclasımız oldu. Mən orda öz fikrimi bildirdim. Qərar qəbul olundu ki, final oyunu Naxçıvanda keçirilsin.

**- Proqnoz verməyi xoşlamadığınızı dediz. Amma final barədə danışıb, ordakı favoritinizi açıqlamasaz da düz deyil. Bəlkə həlledici matçla bağlı fikrinizi açıqlayasız...**

- Hər iki komandanın oyununu iki gün öncə izlədik. Eyni gücə malik komandalardı. Fikir söyləmək çox çətindi. Bunu nə həmin klubların məşqçiləri, nə futbolçuları, nə də azarkeşləri deyə bilər.